

**Emnalıyev Orxan Eyvaz oğlu**

Orxan Eyvaz oğlu Emnalıyev 05 noyabr 1994-cü ildə Tovuz rayonunun Aşağı Mülkülü kəndində anadan olub. 2001–2012-ci illərdə Aşağı Mülkülü kənd tam orta məktəbində, 2013–2017-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb. 2017-ci ildə "leytenant" hərbi rütbəsi altında Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmətə başlayıb. 2019-cu ildən xidmətini "baş leytenant" hərbi rütbəsi altında davam etdirirdi.

Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı olan Orxan Emnalıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə tankçı kimi döyüşüb. Orxan Emnalıyevin idarə etdiyi tank oktyabrın 26-da Qubadlı döyüşləri zamanı vurulub və o, şəhid olub. Tovuz rayonunun Aşağı Mülkülü kəndində dəfn olunub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə baş leytenant Emnalıyev Orxan Eyvaz oğlu “Azərbaycan Bayrağı” ordeni və "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.